**Göy tamahı yerə salıb**

Göy tamahı yerə salıb,
Qurşaq-qurşaq bərə salıb.
Yaz işığı birə salıb
Qışın kürkünə-kürkünə.
    Cavanlaşıb qızdı qarı,
    Gözü gülür darı-darı.
    Bahar bütün qapıları
    Açır ərk ilə, ərk ilə...
Göy üzü ulduz qaçırır,
Arxasınca iz qaçırır.
Küləyə bax qız qaçırır
Alıb tərkinə-tərkinə...
    Kol dibində sirr bənövşə,
    İgidsənsə, dər bənövşə.
    Bəxtəvərdi tər bənövşə
    Düşsə hər kimə, hər kimə...
Dərdim ölər, qadam uçar
Alça, gilas, badam uçar,
Yaz gecəsi adam uçar
Dursa bərkinə-bərkinə...

**Göy tamahı yerə salıb : şeir // Azərbaycan xalq bayramı Novruz. – Bakı : Təhsil, 2011. – S. – 177.**